2019.- 7 iyul.- S.6

# El Ağsaqqalının sözü və işi



**Ağsaqqallar milli-mənəvi, mental dəyərlərimizin qurucu və qoruyucularıdır. Ağsaqqallar dövlətin cəmiyyət arasındakı etibarlı nümayəndələridir. Azərbaycan ağsaqqalının müdrikliyi, mərhəmət və ləyaqəti isə insanlıq aləminin ən yüksək ölçü meyarı səviyyəsinin tərkib hissəsidir. Onlardır zamanında dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşərək müstəqil dövlət qurub gənc nəslə əmanət edənlər.**

Müasir Azərbaycan Dövlətinin memarı, xalqımızın qəhrəman oğlu Heydər Əliyev zəmanəmizin ən görkəmli şəxsiyyətlərindəndir. Odur, fenomen idarəçilik məharətilə seçilən, "Mən fəxr edirəm ki, azərbaycanlıyam" söyləməklə xalqın zəngin tarixi keçmişini xatırladaraq, onu gənc nəslin vətənpərvərlik ruhuna çox məharətlə həkk etdirmişdir.

Heydər Əliyev ideyalarının layiqli davamçısı, ölkə rəhbərimiz cənab İlham Əliyevin apardığı düşünülmüş uğurlu siyasəti nəticəsində, Azərbaycan xalqı bu gün bəşəri dəyərlərilə bütün dünyaya nümunə ola bilən hüquqi, dünyəvi, sürətlə inkişaf edən müasir qüdrətli dövlətə çevrilmişdir. Bu tarixi bir həqiqətdir ki, milləti millət edən onun parlaq nümayəndələridir. Heydər Əliyev zəmanəsində onunla bərabər yaşayaraq, daima qurub-yaratmaq əzmilə çalışan yaşlı nəsil nümayəndələri Ağsaqqal yaşlı insanlarımız öz üzərinə düşən vətəndaşlıq borcunu bu gün də, müdrik yaşlarında həvəslə xalqına, dövlətinə, Azərbaycan elminə yüksək xidmət göstərən müdrik ağsaqqallarımız, elm xadimlərimiz, alimlərimiz var.

Ömrünün 86-cı baharını yaşayan, bu gün də parlaq və şərəfli ömür yolu keçmiş, vətənpərvər ruhlu, "Şöhrət" ordenli, Yasamal Rayon Ağsaqqallar Şurasının sədri, Azərbaycan elminə sanballı töhfələr vermiş alim, xeyirxah gözəl insan AMEA-nın müxbir üzvü 5 iyun 1933-cü ildə dünyaya göz açan Kərim Kərimovdur. Onun keçdiyi şərəfli həyat yolları bugünkü gəncliyimiz üçün böyük həyat məktəbidir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü geologiya-mineralogiya elmlər doktoru, professor Kərim Məmmədxan oğlu Kərimov Azərbaycanın görkəmli geoloq-geofizik alimlərindən biridir. Onun 50 ildən çox davam edən elmi fəaliyyəti sayəsində Azərbaycanın neft və qazla zəngin olan əyalətlərinin dərinlik quruluşu öyrənilmiş, neft geologiyası və geofizikası sahəsində bir sıra fundamental elmi işləmələr başa çatdırılmışdır. Dərin nəzəri tədqiqatlarla yanaşı, o, həm də elmi praktiki işlərlə məşğul olmuş, onun tövsiyələri əsasında bir sıra neft-qaz yataqları açılmışdır.

Azərbaycanın və ümumən Qafqazın geodinamik şəraitinin öyrənilməsində Kərim müəllimin əməyi çox böyükdür. O, 500-dən artıq elmi əsərin, o cümlədən monoqrafiyanın və ixtiraların müəllifidir.

Kərim Kərimov Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuş, Əməkdar elm və texnika xadimi adına layiq görülmüşdür. Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, Lütfüzadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının akademiki və rəyasət heyətinin üzvü, Azərbaycan Milli Geofizika Komitəsinin və Amerika-kəşfiyyatçı Geofiziklər Assosiasiyası (SYG) Azərbaycan bölməsinin prezidenti olmuşdur.

Kərim müəllim 1998-ci ildə Amerika bioqrafiya institutu tərəfindən "İlin adamı" seçilmiş, 1999-cu ildə həmin institut onu "Şöhrət" medalına layiq görmüş. 2000-ci ildə Kembric Beynəlxalq Bioqrafiya mərkəzi tərəfindən "XX əsrdə nailiyyətlərinə görə gümüş medal" və diplomla təltif olunmuşdur. O, geofizikanın müxtəlif məsələlərinə dair keçirilmiş altı beynəlxalq konfransın və bir neçə seminarın təşkilinə başçılıq etmiş, müxtəlif ölkələrdə keçirilmiş geofiziki konfransların işində fəal iştirak etmişdir.

Professor K.Kərimov eyni zamanda satira və siyasi plakat sahəsində əzmlə çalışan karikaturaçı-rəssam, sülh və xalqlar arasında dostluq uğrunda fəal mübariz kimi tanınmışdır. Buna görə o, 1983-cü ildə keçmiş Sovet İttifaqı Sülhü Müdafiə Komitəsinin Diplomu ilə təltif olunmuşdur. Onun indiyə qədər 500 elmi, 5000-dən çox rəsm əsərləri dərc olunmuşdur.

Alim-rəssamın son illərdə yaratdığı plakatların əsas mövzusu ermənilərin sülhsevər Azərbaycan Respublikasına qarşı yeritdiyi qəsbkarlıq və soyqırımı siyasətini, qardaş Türkiyəyə və digər türkdilli dövlətlərə qarşı yönəldilən siyasi fitnələrini ifşa etməkdir.

K.Kərimovun çəkdiyi karikaturalar və siyasi plakatlar Bakıda, Moskvada, Sankt-Peterburqda və İslandiyada keçirilən 18 fərdi sərgisində nümayiş etdirilmişdir.

İnsanlara daim xoş ovqat bəxş etməyə çalışan, bu müdrik humanist insan Yasamal Rayon Ağsaqqallar şurasına sədr seçildiyi ilk günlərdən bu sahədə olan geriliyin aradan qaldırılması üçün Ağsaqqallar Şuralarının fəaliyyətinin artırılması məqsədilə yerlərdə ilk təşkilatlara fəalların cəlb edilməsinin sürətləndirilməsini vacib hesab edərək həyata keçirilməsinə də şəxsən nəzarət edir. Yaşlı nəsil nümayəndələrinə qarşı diqqət və qayğının artırılmasının vacibliyinin incəliyini isə Kərim müəllim özünə xas tərzdə, alim təfəkkürü ilə belə açıqlayır. Qanunlar insan həyatının nizamını qorumaq məqsədilə yazılır.

Dövlət başçısının apardığı siyasətin və Konstitusiyamızın da onurğa sütununun əsasını təşkil edən dövlətçiliyimizin və onun insanlarının hüquqlarının və sağlamlıqlarının qorunması və həyat tərzinin yüksəldilməsidir.

Lakin həyatın qanunlarına əsasən, hər bir ölkə vətəndaşı yaşadığı ömrünün əsas hissəsini Dövlətinə və Xalqına xidmət etməkdə keçirərək, o təbəqəyə yüksələn yaşlı nəsil nümayəndələri ağsaqqal insanlarımızın sərvəti isə, qalan ömürlərinin müdrik yaşlarını dövlətin və xalqının dəstəyilə cəmiyyətin himayəsində sərbəst və ruh yüksəkliyilə rahat yaşamaq hüququdur. Hansı ki onu da bu gün biz sizinlə birlikdə cəmiyyət olaraq təmin etməli və günü-gündən daha da yüksəltməliyik, axı onlar bizim kimliyimizdir.

Ağsaqqallarımız üçün vacib olan məsələlərin ədalətli həlli ilə əlaqədar, Kərim müəllimin tapşırığı ilə, Yasamal Ağsaqqallar Şurasının idarə heyətinin üzvləri, yerlərdə ilk təşkilatlarla yaxından iş apararaq, üzv olanların sayının artırılması nəticəsində formalaşan ilk təşkilatların fəal heyət üzvlərilə icra hakimiyyəti və rayonun digər sosial məsələlərlə məşğul olan qurumları ilə yaxından əməkdaşlıq edərək, köməyə ehtiyacı olan əlillərə, qocalara, kimsəsiz, imkansız ağsaqqal, ağbirçəklərə qayğı, müalicəyə ehtiyacı olanlara qarşı diqqətin artırılmasını əsas istiqamət olaraq daima nəzarətdə saxlayır. Hətta müalicəyə ehtiyacı olan imkansız ağsaqqal, ağbirçək sakinlərin tibb müəssisələrində müalicə alması üçün köməklik göstərilir.

Yaşlı Ağsaqqal insanlarımızı narahat edən hər hansı bir məsələ ilə əlaqədar, Yasamal Ağsaqqallar Şurasına olunan müraciətlər Kərim müəllimin ciddi nəzarəti altında daim öz ədalətli həllini tapır. Belə ki, 2013-cü ildə Yasamal Ağsaqqallar Şurasına ərazi üzrə ilk təşkilat idarəsindən daxil olan müraciətdə vətəndaş bildirirdi ki, 2003-cü ildə təqaüddə olan ailə başçısını itirən ağbirçək kimsəsiz evdar qadın, mərhum həyat yoldaşının təqaüdünün ona verilməsi barədə olan bir çox müraciət və şikayətləri bürokratik əngəllərlə üzləşdiyindən uzun müddətdir ki, ağır maddi durumda yaşaması barədə rayon Ağsaqqallar Şurasının rəhbərliyini məlumatlandıraraq məsləhət və köməklik göstərilməsini xahiş etmişdir. Şuranın sədri hörmətli Kərim müəllim tərəfindən idarə heyətinin üzvlərilə məsləhətləşərək tapşırıqlar verilmiş, göstərilən məsələnin ədalətli həlli məqsədilə hərbi komissarlığa və məhkəmə orqanlarına müraciətlər edilərək müəyyən vacib olan sənədlər toplanıb, az müddət ərzində, məhkəmə qərarından sonra, ağbirçək imkansız qocaya, mərhum həyat yoldaşının təqaüdünün verilməsi, on ildən sonra təmin edilmişdir.

Başqa bir yaşlı sakinin xüsusi səlahiyyətli idarələr tərəfindən təsadüfən uçurulması nəticəsində mülkünü itirən 80 yaşlı imkansız qoca uzun müddət pozulan mülkiyyət hüquqlarını bərpa edə bilmədiyindən bizə, Yasamal Ağsaqqallar Şurasına müraciət edərək məsləhət istəmiş və müəyyən hüquqi köməklik göstərilməsini xahiş edilmişdir. Şuranın sədri, hörmətli Kərim müəllim, ərazi üzrə ilk təşkilat rəhbərliyinə göstərişlər verərək bu məsələnin ədalətli həlli tapşırılmışdır.

Vəkillər Kollegiyası rəhbərliyinin humanistliyi və köməkliyi nəticəsində imkansız, yaşlı sadə vətəndaş 80 yaşlı mülkiyyətçi təmannasız olaraq vəkillə təmin edilmiş və hazırda sözügedən mülkü məsələ də məhkəmə yolu ilə öz ədalətli həllini tapmaq üzrədir.

Yeri gəlmişkən, Respublika Vəkillər kollegiyasının sədri hörmətli Anar Bağırova, nümayəndə vəkil Rəfail İbrahimova yaşlı nəsil nümayəndələri ağsaqqallara göstərilən hörmət və mərhəmətə görə Yasamal Rayon Ağsaqqallar Şurasının idarə heyəti üzvləri adından təşəkkür edirik.

Gənclərin və yeniyetmələrin vətənpərvər ruhda tərbiyəsi də rayon Ağsaqqallar Şurasının daim diqqət mərkəzindədir. Dövlətin gənclər siyasətinə və proqramına Ağsaqqallar Şurası tərəfindən də daim layiqli dəstək verilir. Təhsil müəssisələrində, hərbçilər və əsgərlərlə görüşlərdəki çıxışlarında Kərim müəllimin qeyd etdiyi kimi, bugünkü gənclik Azərbaycançılıq idealogiyası ilə silahlanmış müasir intellektə malik, kifayət qədər savadlı və sağlamdır.

Azərbaycan Respublikası Prezidentinin Gənclərin daim idmanla məşğul olmağa yönəldilməsinə üstünlük verilməsi də şura rəhbərinin işinin əsasını təşkil etməkdədir.

**Nazim SALAHOV,**
**Bakı şəhəri, Yasamal Ağsaqqallar Şurasının ərazi üzrə təşkilat sədri.**